DOI https://doi.org/10.36719/2707-9317/117/69-79

# Construction sector of Azerbaijan: realities and innovative development

**Shakir Aliyev**
Institute of Economics, Ministry of Science and Education of Azerbaijan, Chief Manager
E-mail: aliyev.sh.s@gmail.com

**Abstract:** In this scientific article has analyzed the current state of Azerbaijan's construction sector based on many years of statistic data of mass media sources, and various research methods. The main focus has directed to the quantitative and qualitative changes occurring in the sector, its role in the national economy, utilization of investments directed toward fixed capital, and attained achievements. In addition, have been evaluated the activities of enterprises engaged in the production of construction materials and their role in macroeconomic development, in both directions have been identified relevant potential resources, and provided proposals and recommendations for their effective use through the innovative development of the sector.
**Keywords:** construction sector, construction materials, products and services, gross value added, investment, innovative development.

https://dx.dio.org/
**JEL: 018.R1; UDC: 624:332.05**

# Azərbaycanın tikinti sektoru: reallıqlar və innovativ inkişaf

**Şakir Alıyev**
ETN İqtisadiyyat İnstitutu, Baş menecer, Azərbaycan
E-mail: aliyev.sh.s@gmail.com

**Xülasə:** Məqalədə Azərbaycanın tikini sektorunun mövcud durumu çoxillik statistik və kütləvi informasiya vasitələrinin məlumatları, müxtəlif tədqiqat metodları əsasında təhlil edilmişdir. Əsas diqqət – sahədə baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərinə, onun ölkə iqtisadiyyatındakı roluna, əsas kapitalına yönəldilən investisiyalardan istifadəyə və əldə edilən nailiyyətlərə yönəldilmişdir. Bununla yanaşı tikinti materialları istehsalı ilə məşğul olan müəssisələrin fəaliyyəti, onların makro iqtisadi inkişafda rolu qiymətləndirilmiş, hər iki istiqamət üzrə müvafiq ehtiyat imkanları aşkar edilərək onlardan sahənin innovativ inkişaf yolu ilə səmərəli istifadə olunmasına dair təklif və tövsiyələr verilmişdir.

**Açar sözlər:** tikinti sektoru, tikinti materialları, məhsul və xidmət, yaranmış əlavə dəyər, investisiya, innovativ inkişaf.

https://dx.dio.org/
**JEL. 018.R1; UDK 624:332.05**

## Giriş / İntroduction

Azərbaycanın tikinti sənayesi ölkənin qeyri-neft sektorunun aparıcı sahələrindən biridir. Dövlət proqramları, xarici və yerli investisiyalar nəticəsində Bakı şəhərində və regionlarda genişmiqyaslı infrastruktur layihələri həyata keçirilmişdir. Xüsusilə, sosial evlərin, çoxmənzilli yaşayış binalarının, ictimai binaların, yolların, körpülərin və digər mühüm obyektlərin tikintisi diqqət mərkəzindədir. Bu iqtisadi fəaliyyət sahəsi təşkilati-iqtisadi, istehsal, texniki-texnoloji və geniş təsərrüfat əlaqələrinə malik, dinamik inkişaf edən, çoxçeşidli tikinti materialları istehsalı ilə məşğul olan, mürəkkəb idarəetmə sisteminə malik fəaliyyətin məcmusu kimi xarakterizə edilir. Tikinti sektorunun subyektlərinə: elmi-tədqiqat, layihə-konstruktor təşkilatları, yaşayış binaları, geniş şəbəkəyə malik sosial-infrastruktur obyektləri, inzibati binaların tikintisi, çoxçeşidli tikinti materiallarının, məmulatların, beton konstruksiyaların istehsalı ilə məşğul olan müəssisələr daxildir. Ölkə əhalisinin sayının sürətlə artması, işğaldan azad edilən ərazilərin əsaslı şəkildə bərpası və yenidən qurulması, istismar müddəti başa çatan yaşayış və inzibati binaların sökülərək yeniləri ilə əvəz edilməsi, yeni dizayn, konstruksiyaya və hündürlüyə malik binaların tikintisinə, orada istifadə ediləcək yeni tikinti materiallarının istehsalına ehtiyacın yaranması – tikinti sektorunun innovativ texnologiyalar və metodlar tətbiq etməklə dinamik inkişafının vacibliyini ön plana çəkir.

Bu məqsədlə də Azərbaycan Respublikasının Nairlər Kabinetinin "ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl Qaydalar"da **[8]** təsdiq edilmişdir.

Görünür elə buna görə də Azərbaycan 2030: Milli Prioritetlərdə **[2]** və həmin prioritetlərə söykənən 2026-cı ilədək sosial-iqtisadi inkişaf Strategiyasında **[3]** tikinti sektorunda iqtisadi artımın 3,0% təmin ediləcəyi vurğulanmışdır. Həmin və digər qüvvədə olan normativ sənədlərdə qarşıdakı onillik müddətdə: qeyri-neft sektorunda dəyərin şaxələndirilməsi, təbii resurslardan səmərəli istifadə, tikinti zamanı izafi xərclərin minimuma endirilməsi, tikinti zamanı ətraf mühitə mənfi təsir hallarının aradan qaldırılması, texniki təhlükəsizliyin və əməyin mühafizəsinin təmin olunması, maliyyə vəsaitlərinə əlçatanlığın təmin edilməsi və s. təşkilati-iqtisadi, idarəetmə tədbirlərinin həyata keçirilməsinin zəruriliyi qeyd olunmuşdur.

**Metodologiya.** Məqalənin tədqiqatı gedişində qruplaşdırma, statistik təhlil, analitik qruplaşdırma metodlarından istifadə olunmuşdur. Tədqiqatın informasiya bazasını Azərbaycan Respublikası Dövlət Statistik Komitəsinin, mətbuatda mövzuya dair dərc edilən bəzi məqalələrin müddəaları, eləcə də internet şəbəkəsinin məlumatları təşkil edir.

**Əsas hissə/Main part**

**Nəticə və müzakirələr.**

**Ölkə iqtisadiyyatında tikinti sektorunun yeri.** Azərbaycanda iqtisadiyyatın dayanıqlığının təmin edilməsində tikinti sektorunun rolu danılmazdır. Həyata keçirilən əhəmiyyətli tədbirlər nəticəsində tikinti sahəsi özünün dinamik inkişafını qoruyub saxlayır. Tikinti sektorunun real həcmi hər il orta hesabla 5,1% artır və orada yerinə yetirilən işlərin ümumi həcminin 35 faizə qədəri yaşayış və qeyri-yaşayış binalarının payına düşür. Ölkənin tikinti şirkətləri daha çox yaşayış, ictimai binaların tikintisi, onlara lazım olan infrastruktur və yol tikintisi üzrə ixtisaslaşmışlar. Tikinti sektoru tərəfindən ölkə əhalisinin həyat şəraitinin yaxşılaşdırılması, sosial infrastrukturun dövrün tələblərinə uyğun yenidən qurulması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Onların sırasında yol tikintisi üstünlük təşkil edir. "Müasir infrastruktur və yol olmadan iqtisadi inkişaf mümkün deyil" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkənin bütün regionlarını və yaşayış məntəqələrini birləşdirən yolların yenidən qurulması və tikinti üzrə irimiqyaslı layihələrin həyata keçirilməsinə hər zaman dəstək olmuşdur. Bu baxımdan işğaldan azad edilən ərazilərdə, eləcə də cənub, şimal, qərb, şərq istiqamətində iri magistral yolların çəkilişi qürurvericidir. Tikinti şirkətləri işğaldan azad edilmiş ərazilərdə 300-dən çox kənd və qəsəbələrin yenidən qurulmasında yaxından iştirak edirlər.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində tikinti sektoru subyektlərinin öhdəlikləri ilə əlaqədar olunan mühüm dəyişiklik sektor iştirakçılarının fəaliyyətinin daha da genişlənməsinə təkan vermişdir. Məhz bunun nəticəsidir ki, tikinti sektorunun ÜDM-dəki payı 2022-ci ildə 4,8%-dən 2024-cü ildə 6,3%-ə çatmış; 13,3 faiz real artım təmin edilmiş, ÜDM-in qeyri-dövlət bölməsindəki payı 88,7%-ə çatmışdır. Tikinti materiallarının istehsalı sferasında iqtisadi artım 9,0% təşkil etmişdir **[5, s.13; 7, s.100]**. Təhlil göstərir ki, 2019-2023-cü illərdə Azərbaycanda tikinti işlərinin həcmi 33,9%, sahədə yaranan əlavə dəyərin məbləği isə 24,6% artmışdır **(Diaqram 1)**.




**Diaqram 1. Azərbaycanda tikinti müəssisələrinin əsas makroiqtisadi göstəriciləri, mln.man. (müəllif tərəfindən işlənilmişdir) [6, s.100].**

**Azərbaycanda əsas kapitala yönəldilən investisiyalar.** Əvvəlcə onu qeyd etmək vacibdir ki, 1994-cü ildə "Əsrin Müqaviləsi"-nin imzalanması növbəti ildən başlayaraq Azərbaycana xarici investisiyaların sürətli axınını təmin etmişdir. 1995-2024-cü illər ərzində ölkəmizin iqtisadiyyatına 320 milyard dolar investisiya yatırılıb, onların təxminən 50%-ni xarici investisiyalar təşkil edir. Xarici investisiyaların 45%-dən çoxu ölkədə qeyri-neft sektoruna xərclənmişdir. Son 2019-2023-cü illər ərzində sərmayə qoyuluşunun orta hesabla 69,0 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir. Həmin dövrdə ölkə iqtisadiyyatına daxili mənbələrdən əsas kapitala yönəldilmiş sərmayənin 75,4 faizini təşkil etmişdir.

Əsas kapitala yönəldilmiş investisiyaların 51,3%-ni müəssisə və təşkilatların öz vəsaiti, 31,1% - büdcə vəsaiti, 17,6 %-ni isə digər maliyyə mənbələri təşkil etmişdir **(Qrafik 1)**.




**Qrafik 1. Əsas kapitala yönəldilmiş vəsaitlərin maliyyə mənbələri üzrə strukturu, faizlə [7, s.46].**

Araşdırmalar göstərir ki, 2024-cü ilin 9 ayı ərzində əsas kapitala yönəldilən investisiyaların maliyyə mənbələrinin strukturunda müəyyən dəyişiklik baş vermişdir. Belə ki, büdcə vəsaitinin xüsusi çəkisi, əvvəlki dövrlə müqayisədə 7,8 punkt, müəssisə və təşkilatların öz vəsaitinin xüsusi çəkisi 1,5 punkt artmış, digər mənbələri üzrə isə 9,3 punkt azalma baş vermişdir. Dövlət büdcəsi vəsaitinin artmasının başlıca səbəbi – işğaldan azad edilən ərazilərin bərpası və yenidən qurulmasına böyük həcmdə investisiyanın yönəldilməsidir. Həmin dövrdə iqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilən ümumi investisiyaların 38,1% - sənaye, 26,8% - nəqliyyat və anbar təsərrüfatı, 23,1% - tikinti; 2,7% -informasiya və rabitə, 1,9% - turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,5% - kənd təsərrüfatı, yerdə yalan 5,9% digər iqtisadi fəaliyyət sahələrinin inkişafına sərf edilmişdir. Tikilib, istifadəyə verilən mühüm obyektlər sırasında: Ağdam Sənaye Parkında ayaqqabı istehsalı zavodu, elektrik paylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyalarının istehsalı zavodu, avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı zavodu, divar kağızları istehsalı zavodu, havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsalı zavodu, dam örtükləri istehsalı zavodu, Cəbrayıl rayonunda "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları, Füzuli rayonunda Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi, Əhmədbəyli, Füzuli-Şuşa avtomobil yoluna tunel, Göygöl rayonunda 4,1 MVt gücündə "Toğanlı" KSES, Kəlbəcər rayonunda 110/35/10 kv-luq "İstisu" yarımstansiyası, 4,3 MVt gücündə "Zar" Kiçik Su Elektrik Stansiyası, "İstisu" mineral su zavodu, 22,5 MVt gücündə "Yuxarı Vəng" Su Elektrik Stansiyası, Laçın rayonunda "Zabux" və Qarıqışlaq" Kiçik Su Elektrik, Şuşa rayonunda yaşayış kompleksi, Bayraq Meydanı, Zəngilan rayonunda "Ağalı" hoteli, "Zəngilan" və Şayıflı" Su Elektrik stansiyaları, Zəngilan məscidi, eləcə də respublikanın digər bölgələrində çoxsaylı sosial-infrastruktur şəbəkələrinin qeyd etmək olar **[9, s.41-43]**.

Bütün bu uğurlu faktlar onu göstərir ki, Azərbaycanda investisiya mühitinin optimalaşdırılması istiqamətində davamlı tədbirlər həyata keçirilir.

Bu işdə İqtisadiyyat Nazirliyinin Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə yaradılan "Azərbaycan Tikinti İstehsalçıları Assosiasiyası (ATİA) fəal iştirak edir. Artıq həmin Agentliyin səyi nəticəsində Çexiya, Almaniya və İsveçrə bir sıra tikinti layihələrinin icrasında iştirak edirlər. Rəsmi statistik məlumata görə Azərbaycan iqtisadiyyatına dünyanın 25-dən çox ölkəsi investisiya yatırır. Onların içərisində - Böyük Britaniya, ABŞ, Yaponiya, Norveç, Türkiyə, Fransa, İsveçrə, Rusiya, İran İslam Respublikasının payı daha yüksəkdir **(Cədvəl 1)**.

*Cədvəl 1*

**Azərbaycan iqtisadiyyatına xarici ölkələr tərəfindən yönəldilmiş xarici investisiyalar (ümumi həcmdə xüsusi çəkisi, faizlə)**

| Ölkələrin adları | İLLƏR | | | | | Kənarlaşma (+/-) |
|---|---|---|---|---|---|---|
| | 2019 | 2020 | 2021 | 2022 | 2023 | |
| Böyük Britaniya və ŞİBK | 24,7 | 35,9 | 31,8 | 29,7 | 31,8 | +7,1 |
| ABŞ | 7,3 | 9,8 | 10,9 | 12,5 | 10,8 | +3,5 |
| Yaponiya | 6,0 | 8,2 | 8,7 | 9,9 | 8,6 | +2,6 |
| Norveç | 3,2 | 4,4 | 4,8 | 5,5 | 4,8 | +1,6 |
| Türkiyə | 8,9 | 9,3 | 9,0 | 8,6 | 11,2 | +2,3 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Fransa | 2,5 | 1,3 | 5,0 | 5,3 | 7,5 | +5,0 |
| Çexiya | 1,1 | - | - | - | - | x |
| İsveçrə | 6,5 | 6,5 | 11,4 | 13,3 | 8,0 | +1,5 |
| Malaziya | 5,1 | 4,8 | 4,2 | - | - | x |
| BƏƏ | 0.1 | - | 0,3 | 0,2 | - | x |
| Rusiya Federasiyası | 3,3 | 3,1 | 2,7 | 4,4 | 7,8 | +4,5 |
| İran İslam Respublikası | 3,3 | 3,1 | 2,7 | 2,2 | 3,9 | +0,6 |
| İtaliya | 0,0 | 0,0 | 0,1 | 0,0 | 0,0 | x |
| Almaniya | 1,3 | 1,6 | 1,4 | 0,1 | - | x |
| Hindistan | 1,0 | 1,4 | 1,5 | 1,8 | 1,5 | +0,5 |
| Sinqapur | - | 0,4 | - | - | - | x |
| Səudiyyə Ərəbistanı | 0,8 | - | - | - | - | x |
| Sent-Lüsiya | 0,4 | - | - | - | - | x |
| Koreya Respublikası | 0,4 | 0,1 | - | - | - | x |
| Vizgin adaları | 0,4 | 0,2 | 0,1 | 0,2 | 0,4 | - |
| Qazaxstan | - | - | - | - | 0,1 | x |
| Çin | 0,0 | 0,1 | 0,1 | 1,2 | - | x |
| Lüksenburq | 13,7 | - | - | - | - | x |
| Beynəlxalq təşkilatlar | 10,0 | 9,8 | 5,3 | 5,1 | 3,6 | -6,4 |
| **Mənbə:** Azərbaycanda tikinti. Statistik məcmuə. Bakı, “DSK”, 2024, s.65-68 (müəllif tərəfindən tərtib edilib hesablanmışdır). | | | | | | |

Araşdırmalar göstərir ki, əgər 2019-cu ildə Azərbaycanda əsas kapitala yönəldilən investisiyaların 47,5%-dövlət, 25,4% - xüsusi və 27,1% - xarici mülkiyyətin payına düşmüşdürsə, 2023-cü ilə də həmin nisbətə uyğun olaraq: 55,8%; 27,7% və 26,5% təşkil etmişdir.

Nəticədə, dövlət mülkiyyətinin payı 8,3 punkt artmış, xüsusi mülkiyyətin payı 7,7 punkt, xarici investisiyalı mülkiyyətin payı 0,6 punkt azalmışdır **(diaqram 2).**




**Diaqram 2: Azərbaycanda əsas kapitala yönəldilən investisiyaların mülkiyyət növlərinə görə bölgüsü, ümumi həcmdə xüsusi çəkisi, faizlə (müəllif tərəfindən tərtib edilmişdir) [ 7, s.45].**

Digər məlumata görə təhlilin əhatə etdiyi dövrdə əsas kapitala yönəldilən investisiyaların təyinatında əsaslı dəyişiklik baş vermişdir. Belə ki, əgər 2019-cu ildə iqtisadiyyatda əsas kapitala yönəldilən investisiyaların 66,1%-i məhsul istehsalına, 26,8%-i xidmət sahəsinə və 7,1%-i yaşayış evlərinin tikintisinə sərf edilmişdirsə, 2023-cü ildə üstünlük xidmət sahələrinə və yaşayış evlərinə verilmişdir **(Qrafik 2)**.




**Qrafik 2. Azərbaycanda məhsul istehsalı, xidmət sahələrinə və yaşayış evlərinin tikintisinə yönəldilmiş investisiyaların bölgüsü, yekuna görə faizlə (müəllif tərəfindən işlənilmişdir) [ 7, s.47-49].**

**Tikinti materialları istehsalı.** Azərbaycanda tikinti materialları istehsalı tikinti sənayesi kompleksinin mühüm və ayrılmaz tərkib hissəsidir və onun fasiləsiz (davamlı) işində müstəsna rol oynayır, ən qədim dövrlərdən bu günə qədər inkişaf edərək, dövrün texniki-texnoloji yeniliklərini (imkanlarını) özündə ehtiva edir. Ölkəmizin tikinti sektorunda reallaşan ümumi məhsul buraxılışının 2023-cü ildə 15,5%-i məhz tikinti materialları istehsalı müəssisələrinin payına düşür. Rəsmi statistik məlumata görə 2019-2023-cü illərdə tikinti materialları istehsal edən müəssisələrin sayı 105 vahid artaraq 359 vahidə çatmışdır. Həmin dövrdə onların kateqoriyalarında institusional dəyişiklik baş vermiş, 2023-cü ilin yekununda fəaliyyətdə olan müəssisələrin 58,2%-i mikro, 25,1%-i kiçik, 12,6%-i orta və yanlız 4,1%-i iri statusa malik olmuşdur **(Qrafik 3)**.

| Sahibkarlıq subyektlərinin kateqoriyaları | Kateqoriyalar | 2019 | 2022 | 2023 |
|---|---|---|---|---|
| | Mikro | 51,9 | 58,4 | 58,2 |
| | Kiçik | 26,4 | 24,7 | 25,1 |
| | Orta | 15,8 | 12,5 | 12,6 |
| | İri | 5,9 | 4,4 | 4,1 |

**Qrafik 3. Azərbaycanın tikinti materialları istehsalı sferasında sahibkarlıq subyektlərinin strukturunda baş verən dəyişikliklər, yekuna görə faizlə (müəlliflər tərəfindən işlənilmişdir) [5, s.16; 34]**

Onların 98,3%-i qeyri-dövlət, yəni özəl mülkiyyətdədir. Bu istehsal sahəsində sənaye fəaliyyəti ilə 2400 nəfərdən çox fərdi sahibkar çalışır və onların sayı təhlilin əhatə etdiyi dövrdə 13,6% artmış

tikinti materialları istehsal edən müəssisələrdə çalışan işçilərin sayı 16,5%, o cümlədən qadınların sayı 14,9% azalmışdır. Buna baxmayaraq istehsal edilən məhsulun (işçi, xidmətin) həcmi 57,5% artmışdır. Bununla yanaşı müəssisələrin eyni kateqoriyadan olan məhsulların tərkibindəki xüsusi çəkisi həmin istehsal sahəsinə əsas kapitala məbləği azalan xətlə olmaqla 556,3 milyon manat investisiya, texnoloji innovasiyalara isə cəmi 1,36 milyon manat vəsait yönəldilmişdir **(Cədvəl 2)**.

*Cədvəl 2*

**Azərbaycanda tikinti materialları istehsalı ilə məşğul olan müəssisələrin işinin əsas göstəriciləri**

| Göstəricilər | İLLƏR | | | | | 2019-2023-cü illərdə artım tempi, % |
|---|---|---|---|---|---|---|
| | 2019 | 2020 | 2021 | 2022 | 2023 | |
| Fəaliyyət göstərən müəssisələrin sayı-cəmi | 254 | 266 | 289 | 320 | 259 | 141,3 |
| dövlət | 10 | 10 | 9 | 7 | 6 | 60,0 |
| qeyri-dövlət | 244 | 256 | 280 | 313 | 353 | 144,7 |
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | 2114 | 2305 | 2405 | 2388 | 2402 | 113,6 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, mln.man. | 749,1 | 741,3 | 881,4 | 1082,9 | 1180,2 | 157,5 |
| Müəssisədə muzdlu işləyənlərin sayı, nəfər | 14406 | 13514 | 12353 | 12376 | 12021 | 83,5 |
| Onlardan qadınlar | 1629 | 1494 | 1293 | 1349 | 1386 | 85,1 |
| Müəssisələrdə muzdlu işləyənlərin orta aylıq əməkhaqqı, man. | 716 | 764 | 757 | 823 | 881 | 123,1 |
| Müəssisələrin anbarlarında hazır məhsul qalığı, mln.man. | 15,8 | 28,2 | 36,7 | 43,5 | 43,2 | 2,7 dəfə |
| Qalıq məhsulun emal sənaye məhsulundakı xüsusi çəkisi, % | 3,7 | 5,6 | 5,8 | 4,5 | 5,5 | +1,8 |
| Əsas kapitala yönəldilən investisyalar, mln.man. | 100,4 | 119,3 | 179,4 | 103,8 | 53,4 | 53,2 |
| Əsas kapitala yönəldilən investisyaların emal sənayesindəki payı, % | 4,1 | 4,6 | 3,9 | 8,6 | 5,8 | +1,7 |
| Texnoloji innovasiyalara çəkilən xərclər, mln.man. | - | 512,2 | 340,3 | 338,6 | 173,5 | X |
| **Mənbə:** Azərbaycanın sənayesi: Statistik məcmuə. Bakı, "DSK", 2024, s. 13; 22; 51; 73; 114; 121 (məlumatlar əsasında müəllif tərəfindən tərtib edilib hesablanmışdır). | | | | | | |

Bütün bunlara baxmayaraq tikinti materialların istehsalı müəssisələrinin makro-iqtisadi göstəricilərində dinamik artım təmin edilmiş, yaranan əlavə dəyərin məbləği 57,1 faiz artaraq 2023-cü ildə 494,4 milyon manata çatmışdır. İstehsal indeksi, emal sənayesində istehsal edilən məhsuldakı payı göstəricilərində də yüksək artım təmin edilmişdir **(Cədvəl 3)**.

*Cədvəl 3*

**Azərbaycanda tikintinin materiallarının istehsalı müəssisələrinin makroiqtisadi göstəricilərinin dinamikası**

| Göstəricilərin adları | İLLƏR | | | | | 2019-2023-cü illərdə artım tempi, faizlə |
|---|---|---|---|---|---|---|
| | 2019 | 2020 | 2021 | 2022 | 2023 | |
| Ümumi məhsul buraxılışının həcmi, mln.man | 749,1 | 741,3 | 881,4 | 1082,9 | 1180,2 | 157,5 |
| Sənaye istehsalı indeksi, % | 105,0 | 103,9 | 176,9 | 114,4 | 132,4 | +27,4 |
| Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi dəyərində sahənin payı, % | 1,6 | 2,0 | 1,6 | 1,3 | 1,8 | +0,2 |
| Ölkə sənayesinin qeyri-dövlət sektorunda sahənin qeyri-dövlət sektorunun payı, % | 1,9 | 2,5 | 1,9 | 1,4 | 2,1 | -0,2 |
| Aralıq istehlakın həcmi, mln.man. | 434,4 | 421,4 | 533,5 | 629,3 | 685, | 157,9 |
| Yaradılmış əlavə dəyər, mln.man. | 314,7 | 319,9 | 347,9 | 453,6 | 494,4 | 157,1 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| mal sənayesində istehsal edilən məhsuldakı payı, % | 1,6 | 2,0 | 1,6 | 1,3 | 1,8 | +0,2 |
| Aralıq istehsalın həcminin ümumi məhsul buraxılışındakı payı, % | 58,0 | 56,8 | 60,5 | 60,5 | 58,1 | +0,1 |
| **Mənbə:** Azərbaycanın Milli Hesabları. Statistik məcmuə,. Bakı, "DSK", 2024, s.35-38 (cədvəl müəllif tərəfindən tərtib edilib hesablanmışdır). | | | | | | |

**Tikinti materialların natural istifadəsində istehsalı.** Kütləvi informasiya mənbələrində qeyd edildiyi kimi son illər dünya tikinti bazarının həcmi təqribə 900 milyard dollara çatıb. Satılan məhsulların içərisində istehsalı müasir innovasiya texnologiyaları əsasında reallaşan sement, kərpic, beton, çınqıl yüksək xüsusi çəkiyə malikdir. Onlardan sementin seqment bazarı daha genişdir. Hazırda Qaradağ sement zavodunda 200 markalı üzlük, 400 və 500 markalı bina özüllərinin tikintisində geniş istifadə edilən sement istehsal olunur. Ölkənin tikinti sektorunda istifadə edilən mişar daşının təqribən 80 faizi Abşeron daş karxanasından çıxarılır **[10]**.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı tikinti-bərpa işlərinin aparılması tikinti materiallarının həcminin artmasına əsaslı təkan vermişdir. Təkcə 2023-cü ildə saxsı lövhələr istehsalı - 24,0%, gips - 2,7 dəfə, tikinti kərpici 2,3 dəfə, gipsdən hazırlanan tavanlar və bloklar 4,2 dəfə, sement – 14,2%, şüşə məmulatları 15,0% artmışdır. Tikinti materiallarının əsas növlərinin yüksək artımı bütünlükdə 2019-2023-cü illərdə də yer almışdır. Onlar haqqında məlumat **4 saylı cədvəldə** əks etdirilmişdir.

*Cədvəl 4*

**Azərbaycanda tikinti materiallarının əsas növlərinin natura ifadəsində istehsalı**

| Məhsulun adı | İ L L Ə R | | | | | 2019-2023-cü illərdə artım tempi, faizlə |
|---|---|---|---|---|---|---|
| | 2019 | 2020 | 2021 | 2022 | 2023 | |
| Şüşə məmulatları, ton | 5427,1 | 6180,3 | 4596,5 | 4885,4 | 5285,9 | 97,4 |
| Şüşədən mətbəx, laboratoriya və s. məmulatları, milyon ədəd | 56,9 | 76,0 | 57,2 | 50,2 | 58,7 | 103,2 |
| Saxsı lövhələr, min kv.m | 3320,7 | 3939,1 | 4384,7 | 4580,3 | 6281,4 | 189,2 |
| Tikinti əhəngi, ton | 44634,5 | 34310,2 | 35736,6 | 46255,4 | 44307,0 | 99,3 |
| Gips məmulatları, ton | 29847,4 | 37746,9 | 56636,7 | 72133,5 | 125107,7 | 4,2 dəfə |
| Ondan: tikinti gipsi, ton | 17844,7 | 26121,8 | 36856,3 | 42932,5 | 84956,0 | 4,8 dəfə |
| Tikintidə istifadə etmək üçün gipsdən tavalar və bloklar, min kv.m | 132,24 | 16282,3 | 23391,3 | 32934,8 | 97993,8 | 7,4 dəfə |
| Sement, min ton | 3488,4 | 3237,1 | 3438,7 | 3561,2 | 3963,2 | 113,6 |
| Hörmə üçün hazır beton qarışığı, min ton | 2777,1 | 2945,9 | 3909,5 | 4714,4 | 4599,4 | 165,6 |
| Betondan yığma tikinti konstruksiyaları, min kub.m | 51,0 | 56,2 | 47,0 | 50,1 | 60,1 | 117,8 |
| Asfalt, min ton | 1112,0 | 527,2 | 807,7 | 1131,8 | 1428,0 | 128,4 |
| Tikinti kərpici min kub.m | 462,8 | 542,7 | 874,0 | 761,9 | 617,9 | 133,5 |
| Sementdən, betondan, kərpiclər və oxşar məmulatlar, ton | 99426,7 | 108759,5 | 149193,5 | 150437,0 | 111969,3 | 112,6 |
| **Mənbə:** Azərbaycan sənayesi. Statistik məcmuə. Bakı, "DSK", 2024, s.80 (müəllif tərəfindən tərtib edilib hesablanmışdır). | | | | | | |

Azərbaycanın tikinti sektoru son illərdə ciddi inkişaf mərhələsindən keçsə də, bu inkişafın davamlılığı üçün bəzi sistemli problemlərin həlli zəruridir **[4]**. Problemlərin əsas istiqamətləri aşağıdakı kimi daha geniş təhlil edilə bilər:

- Keyfiyyət standartlarının tam təmin olunmaması: Tikinti sektorunda keyfiyyət məsələsi həm texniki, həm də təşkilati baxımdan xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın bəzi tikinti

layihələrində istifadə edilən materialların beynəlxalq sertifikatlara cavab verməməsi və keyfiyyətinə tam nəzarət mexanizmlərinin yetərincə işlək olmaması müşahidə edilir. Bundan əlavə, işçi qüvvəsinin peşəkarlıq səviyyəsi də hər zaman optimal deyil. Müasir tikinti texnologiyalarının tələblərinə uyğun peşə bacarıqlarının olmaması, bəzi hallarda tikinti prosesində təhlükəsizlik normalarının pozulmasına, layihələrin vaxtında və yüksək keyfiyyətlə təhvil verilməməsinə səbəb olur. Keyfiyyətin aşağı olması, eyni zamanda, binaların istismar müddətini azaldır və əlavə xərclərin yaranmasına yol açır.

- Əmək məhsuldarlığının nisbətən aşağı səviyyədə olması: Azərbaycanın tikinti sektorunda əl əməyinin payı hələ də yüksəkdir. Bu isə əmək məhsuldarlığını məhdudlaşdırır və xərcləri artırır. Bir çox tikinti müəssisələrində ağır texnika, avtomatlaşdırılmış avadanlıqlar və robotlaşdırılmış həllərdən istifadə məhduddur. Ənənəvi tikinti üsullarının üstünlük təşkil etməsi innovativ yanaşmaların tətbiqinə mane olur və beynəlxalq rəqabətlilik baxımından sektorun mövqeyini zəiflədir. Əmək məhsuldarlığının aşağı olması, eyni zamanda, layihə müddətlərinin uzanmasına, əlavə işçi qüvvəsi xərclərinin artmasına və iqtisadi effektivliyin azalmasına gətirib çıxarır.

- Ətraf mühitə mənfi təsir: Tikinti sektoru dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da ətraf mühitə təsir edən əsas sahələrdən biridir. Bəzi layihələrdə ekoloji standartların gözlənilməməsi, tullantıların düzgün idarə edilməməsi, tikinti zamanı torpaq və su ehtiyatlarının çirkləndirilməsi, yaşıllıqların məhv edilməsi kimi hallar ətraf mühitə ciddi zərər yetirir. Xüsusilə böyük şəhərlərdə intensiv tikinti fəaliyyəti hava keyfiyyətinə, səs-küyə və ətraf ərazilərdə ekosistemə mənfi təsir göstərir. Davamlı tikinti standartlarının tətbiqi hələ tam sistemləşdirilmədiyi üçün ekoloji davamlılıq prinsipləri ikinci planda qalır.

- Rəqəmsallaşmanın zəif inkişafı: Qlobal tikinti sektorunda rəqəmsal texnologiyalar, xüsusilə BIM (Building Information Modeling), layihə idarəetməsində və resurs optimallaşdırılmasında yeni mərhələ açır. Lakin Azərbaycanda BIM texnologiyasının tətbiqi hələ də məhdud səviyyədədir. Bir çox şirkətlər ənənəvi layihələndirmə və tikinti metodlarından istifadə edir, rəqəmsal layihə idarəetmə platformalarına keçid isə ləng gedir. Rəqəmsallaşmanın zəif olması layihələrdə məlumat axınının düzgün idarə olunmaması, sənəd dövriyyəsində gecikmələr və koordinasiyanın zəifləməsi kimi mənfi nəticələrə gətirib çıxarır. Bu da ümumilikdə tikinti prosesinin səmərəliliyinə mənfi təsir edir.

- Kadr hazırlığı problemləri: Müasir tikinti sahəsi yüksək texnologiyaların, avtomatlaşdırma və rəqəmsal idarəetmə həllərinin tətbiqini tələb edir. Lakin ölkədə bu texnologiyalarla işləmə bacarığına malik mühəndislər, texniki işçilər və menecerlərin sayı hələ də məhduddur. Peşəkar kadr hazırlığı sisteminin zəif inkişaf etməsi, ixtisasartırma kurslarının və beynəlxalq təcrübə mübadiləsinin kifayət qədər təşkil edilməməsi sektorun inkişafını ləngidir. Yeni texnologiyalara uyğun olmayan kadr potensialı innovasiyaların tətbiqini çətinləşdirir, sektorda beynəlxalq standartlara uyğun işçi qüvvəsinin formalaşmasını əngəlləyir.

Beləliklə, tikinti sektorunun dayanıqlı inkişafı üçün bu problemlərin həlli prioritet məsələlərdəndir. Keyfiyyətə nəzarət mexanizmlərinin gücləndirilməsi, texnoloji avadanlıqların geniş tətbiqi, ekoloji standartlara uyğunluğun təmin edilməsi, rəqəmsallaşmanın sürətləndirilməsi və ixtisaslı kadr hazırlığının müasirləşdirilməsi sahənin rəqabətqabiliyyətliliyini və səmərəliliyini artıracaq əsas amillərdir.

## Nəticə / Conclusion

Aparılan tədqiqatın yekunu olaraq aşağıdakı nəticələr əldə edilmiş, metodiki və əməli xarakterli təkliflər irəli sürülmüşdür:

**1.** Təhlil və qiymətləndirməyə əsasən neft-qaz satışından əldə edilən gəlirlərin və xarici investisiyaların bir hissəsinin ölkəmizdə çoxsaylı regional, sahə və məqsədli dövlət proqramların icrasına yönəldilməsi tikinti sektorunun dinamik inkişafına təminat yaratmışdır;

**2.** İşğaldan azad edilən ərazilərdə miqyası çətin ölçüyə gələn nəhəng, çoxşaxəli investisiya layihələrinin sürətlə icrası – yeni beynəlxalq standartlara cavab verən nəqliyyat–kommunikasiya şəbəkələrinin, yaşayış evlərinin, sosial–infrastruktur obyektlərinin, sənaye parklarının, emal müəssisələrinin tikilib istifadəyə verilməsinə imkan vermişdir;

**3.** Respublikanın regionlarında həyata keçirilən tikinti, quruculuq və abadlıq işləri əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasına, məşğulluğun təmin edilməsinə geniş imkanlar yaratmışdır;

**4.** Ölkə ərazisində yeni enerji şəbəkələri, yaşıl enerji obyektləri yaradılmış, əhalinin qar və su ilə təminatı əsaslı şəkildə yaxşılaşmış, turizm sektoru, kənd təsərrüfatı sahələri genişləndirilmiş, əlverişli biznes mühiti formalaşdırılmışdır;

**5.** Ölkə ərazisində xarici investisiyalı və müştərək müəssisələrin yaradılması əvvəllər idxal edilən bir çox qida, geyim, geniş çeşidli xalq istehlakı mallarının, tikinti materiallarının, kənd təsərrüfatı üçün maşın və mexanizmlərin, minik və yük avtomobillərinin, avtobusların, traktorların, məişət və elektroavadanlıqlarının yerli istehsalına rəvac vermişdir;

**6.** Respublikanın iri şəhərlərində çoxmərtəbəli yaşayış binaları və fərdi yaşayış evlərinin tikintisi sürətlə davam etdirilir;

**7.** Tikinti materialları istehsalı ilə məşğul olan müəssisələrin innovativ inkişafına kömək edə bilən xarici investisiyalardan lazımınca istifadə edilmir, müasir, enerji qoruyucu materialların istehsalına ehtiyac duyulur.

Azərbaycanın tikinti sektorunun və onun üzvi tərkib hissəsini təşkil edən tikinti materialları istehsalı müəssisələrin iqtisadi təhlükəsizliyini və innovativ inkişafını təmin etmək üçün aşağıdakı metodiki və əməli xarakterli tövsiyələrin həyata keçirilməsini məqsədə uyğun hesab edirik:

∗ Dövlət sifarişlərinin tikinti təşkilatlarında yerləşdirilməsinin daha təkmil mexanizminin işlənilməsi, keçirilən tender təcrübəsinin təkmilləşdirilməsi – dövlət vəsaitinin məqsədyönlü və səmərəli istifadəsinə təminat yaratmış olacaqdır;

∗ Tikintidə tətbiq edilən bütün növ norma və normativlərin beynəlxalq təcrübəyə uyğunlaşdırılması;

∗ Ölkənin bütün ərazilərində, fəaliyyətdə olan tikinti təşkilatlarında əmək müqaviləsinin bağlanması prosesinin elektronlaşdırılması;

∗ Hər il ləğv edilən və zərərlə işləyən tikinti təşkilatlarının sayının azaldılması üçün onların aşağı faizli kreditlərə əlçatanlığının təmin edilməsi;

∗ Regionlarda fəaliyyət göstərən tikinti təşkilatlarının işlərinin intensivliyini artırmaq üçün idxal olunan texnika və texnologiyalara güzəştli gömrük rüsumunun, eləcə də əlverişli kredit–vergi mexanizminin tətbiq edilməsi;

∗ Tikinti materiallarının keyfiyyətini yüksəltmək məqsədilə keyfiyyətə nəzarət monitorinqinin gücləndirilməsi, hazırda təcrübədə istifadə olunan normativ –texniki və reqlamentləşdirici sənədlərin beynəlxalq standartlara uyğunlaşdırılması, yaşıl standartların tətbiqinə üstünlük verilməsi;

∗ Tikintidə layihələrin qiymətləndirilməsi zamanı iqtisadi, sosial və ekoloji kompleks təhlillərinin aparılması;

∗ Tikinti materialları istehsal edən müəssisələrdə istehsalın şaxələndirilməsi hesabına idxalı əvəz edən məhsulların istehsalına nail olmaq;

Aşağıdakı innovativ yanaşmaların və tədbirlərin icrasına üstünlük verilməsi:

–Binaların lahiyələndirilməsində rəqəmsal kataloqlardan, texnologiyaların rəqəmsal tiplərindən funksional – modul idarəetmə metodunda istifadə edilməsi,

–Materialların binanın həyat tsiklinə hədəfləndirilməsi;

–Yığma konstruksiyalardan geniş istifadə olunması;

–Tikintidə enerjiqoruyucu problemi həll etmək üçün daşıyıcı və arakəsmə divarlarda yüngül betonların yeni nəslindən istifadə olunması;

–İki mərhələli formatda şüşələrin hazırlanması;

–Arakəsmələrdə və dam örtüyündə müxtəlif istiqoruyucu materiallarından istifadə etməklə mümkün tikinti materialının hazırlanması;

–Arbest–sement məmulatlarının müasir növünün istehsalının mənimsənilməsi;

– Sahənin innovativ düşüncəli kadrlarla təmin edilməsi.

### İstifadə olunmuş ədəbiyyat / *References*

1. Azərbaycan Respublikasının Mülki məcəlləsi. Bakı, Qanun, 2000, 513s. (əlavə və dəyişikliklərlə) https://e-qanun.az/framework/23

2. Azərbaycan 2023: sosial–iqtisadi inkişafa dair Milli Prioritetlər https://president.az/az/articles/view/50474

3. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. Bakı, 2022, 82s. https://e-qanun.az/framework/50013

4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Tikinti fəaliyyəti üzrə statistik göstəricilər. Bakı, 2024.

5. Azərbaycanın sənayesi. Statistik məcmuə. Bakı, "DSK", 2024 https://www.stat.gov.az/source/industry/

6. Azərbaycanın Milli hesabları. Statistik məcmuə. Bakı, "DSK", 2024 https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/

7. Azərbaycanda tikinti. Statistik məcmuə. Bakı, "DSK", 2024 https://www.stat.gov.az/source/construction/

8. "Ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl Qaydalar"ın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 21 fevral tarixli qərarı https://e-qanun.az/framework/27409

9. Sosial, iqtisadi inkişaf. Aylıq statistik məcmuə. Bakı, "DSK", 2024, 153 s.

10. https://azertag.az/xeber/azerbaycanda_tikinti_materiallari_istehsali_205_faiz_artib-2620976

## Строительный сектор Азербайджана: реальности и инновационное развитие

**Шакир Алыев**
Институт Экономики Министерства Науки и Образования Азербайджана, главный менеджер
e-mail: aliyev.sh.s@gmail.com
https://orcid.org/000-0002-

**Резюме:** В статье на основе многолетних статистических данных и материалов средств массовых информаций, с использованием различных методов исследования, оценено современное состояние строительного сектора Азербайджана. При этом особое внимание уделено на происходящее количественное и качественные преобразования в отрасли, её роль в экономике страны, состояние использования инвестиции в основной капитал и на достигнутые результаты. Наряду с этим проанализирована деятельность предприятий по производству строительных материалов, их роль в макроэкономическом развитии выявлено соответствующие резервы по этим двум направлениям и разработаны рекомендации по их эффективному использованию путем инновационного развития отрасли.

**Ключевые слова:** строительный сектор, строительные материалы, продукция и услуги, созданная добавленная стоимость, инвестиции, инновационное развитие.

https://dx.dio.org/
**JEL: 018.R1; УДК 624:332.05**